| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | HİST 305,Azərbaycan tarixi-3, 6 AKTS |
| | **Departament** | Tarix və Arxeologiya Departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-ci tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim** | Odər Əlizadə |
| | **E-mail:** | oder.alizade@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | **Müəllimin təyin etdiyi vaxtda** |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Dərsliklər**<br><br>Nəsib Nəsibli, Azərbaycan tarixi: Millət-Dövlət-Siyasət. Bakı, 2022.<br>Cəmil Həsənli, Sovet Dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939) Bakı, 2012.<br>Cəmil Həsənli, Ağ Ləkələrin Qara Kölgəsi: 1920-1930-cu illərdə Azərbaycanda Sovet totalitarizmi. Bakı, 1991.<br>Süleyman Əliyarlı, Azərbaycan Tarixi. Uzaq Keçmişdən 1870-ci ilə qədər, Bakı, 2009.<br>Musa Qasımlı, Azərbaycan Respublikasının Tarixi: I - II cildlər. Bakı, 2021.<br>Ali Məktəblər Üçün Dərslik. M. Q. Abdullayevin redaktəsi ilə. Bakı, 2014.<br><br>**Əlavə ədəbiyyat**<br><br>Azərbaycan tarixi. Yeddi cildlik. VI cild (aprel 1920-iyun 1941), Bakı, 2008; VII cild (1941-2002), Bakı, 2008.<br>Qafqazda Sovet totalitarizmi (1920-30-cu illərdə). Elmi Konfrans. Xəzər Universitəsi, 1998.<br>Tadeuş Svyatoçovski. Rusiya və Azərbaycan. Bakı, Xəzər Universitəsi, 2000.<br>Oqtay Əsədov. Heydər Əliyev. Bakı, 2008.<br>Natiq Əliyev. Neft sənayesinin intibah dövrü. Bakı, 2013.<br>N. Cəfərov, D. Osmanlı. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə. Bakı, 2004.<br>Xaləddin İbrahimli. Azərbaycan Siyasi mühacirəti. Bakı, 1997.<br>Ziya Bünyadov, Qırmızı Terror. Bakı, 1992.<br>Həsənov, C. Azərbaycan beynəlxalq münasibətlər sistemində .1918-1920-ci illər. B.,1993.<br>Qasımov, M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. B.,2001.<br>Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı. B.,1922.<br>Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti.B.,1990. | |

<table>
<tr><td>Kursun təsviri və məqsədləri</td><td colspan="3">Bu fənn, Azərbaycan tarixinin Türk dünyası və Qafqazın ümumi tarixi kontekstində formalaşmasını və inkişafını araşdırır. Əsas məqsəd, Azərbaycanın keçdiyi tarixi mərhələləri, mühüm hadisələri, siyasi, hərbi, ideoloji, mədəni, demoqrafik və etnik prosesləri elmi əsaslarla öyrətməkdir. Kurs tələbələrdə müxtəlif dövrlərin hadisələrini müqayisəli şəkildə təhlil etmək, onların səbəb-nəticə əlaqələrini dərk edərək düzgün məntiqi nəticələr çıxarmaq bacarığını formalaşdırır. “Azərbaycan Tarixi-III” fənni çərçivəsində siyasi və iqtisadi inkişaf xətti, etnogenez və milli dövlətçilik məsələləri, ictimai-siyasi proseslər, mədəniyyət və elm sahəsində dəyişikliklər əhatə olunur. Fənnin əsas vəzifələrindən biri, tarixi hadisələrdən ibrət dərsi götürmək, milli dövlətçilik şüurunu gücləndirmək, vətənpərvərlik, milli vicdan və tarixi məsuliyyət duyğusunu aşılamadır. Azərbaycan dövlətçiliyinin müxtəlif mərhələləri xüsusi mövzular əsasında ayrıca təqdim edilir. Kurs nəzəri mühazirələr və seminar məşğələlərindən ibarət olub, tələbələrə fundamental tarixi anlayışların izahını, onların tətbiqi yollarını, həmçinin müasir dövrdə ölkənin daxili və xarici siyasəti ilə əlaqələrini anlama imkanı yaradır.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələrdə:<br>- Tələbələr Azərbaycanda Sovet işğalının və 1920-1930-cu illərdə baş verən milli müqavimət hərəkatlarının tarixi əhəmiyyətini və xalqın azadlıq mübarizəsini dərk edəcəklər.<br>- Tələbələr Azərbaycan siyasi mühacirətinin və xalqın öz dövlətçiliyini qorumaq uğrunda apardığı diplomatik mübarizənin milli tarixdəki rolunu qiymətləndirə biləcəklər.<br>- Tələbələr Sovet totalitarizminin Azərbaycan xalqına təsirini, repressiyalar və sürgün siyasətini, milli mədəniyyətin qorunması və inkişaf etdirilməsinin vacibliyini tənqidi şəkildə analiz edəcəklər.<br>- Tələbələr İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqının və legionerlərinin milli azadlıq uğrunda göstərdiyi şücaəti və müstəqillik təşəbbüslərini tarixi kontekstdə qiymətləndirəcək.<br>- Tələbələr 1980-1990-cı illərdə milli-demokratik hərəkatın yüksəlişi, Azərbaycanın müstəqilliyinin bərpası və torpaqlarımızın işğalına qarşı mübarizənin milli məna və əhəmiyyətini anlayacaqlar.<br>- Tələbələr müasir dövrdə Azərbaycanın dövlətçiliyi, beynəlxalq mövqeyi, neft strategiyası və diaspora fəaliyyətləri ilə milli inkişafın və birlik ruhunun əhəmiyyətini tarixi proseslərlə əlaqələndirərək təhlil edəcəklər.</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">X</td></tr>
<tr><td>Qrup işi</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">X</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">X</td></tr>
<tr><td>Digər</td><td colspan="2">X</td></tr>
<tr><td rowspan="8">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Noyabr</td><td>35 bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr boyu</td><td>5 bal</td></tr>
<tr><td>Yoxlama yazı işi (Quiz)</td><td>Final imtahanı öncəsi</td><td>10 bal</td></tr>
<tr><td>Davamiyyət</td><td>Smestr boyu</td><td>5</td></tr>
<tr><td>Təqdimat (Prezentasiya)</td><td>Semestr ərzində</td><td>5 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>Yanvar</td><td>40 bal</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100 bal</td></tr>
</table>

| | |
|---|---|
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Aktivlik**<br>Dərslərdə, müzakirələrə, təqdimatlara və elmi seminarlarda iştirak etmək.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərs proseslərində iştirakı zəruri şərt kimi qəbul edilir. Müəyyən üzrlü hallarda (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması zərurəti yarandıqda, tələbələr bu barədə fakültə dekanlığını rəsmi qaydada məlumatlandırmalıdırlar. Tədris yükünün 25 faizindən artıq hissəsində iştirak etməyən tələbələrin imtahanlara buraxılması mümkün deyil. Davamiyyət göstəriciləri tələbələrin qiymətləndirilməsinə birbaşa təsir etmir; nə əlavə bal verilir, nə də mövcud baldan çıxılır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbənin adı davamiyyətdən kənar qeyd olunur, lakin həmin tələbəyə dərs prosesində iştirak imkanı verilir.<br>**Yoxlama işi (Quiz)**<br>Yekun imtahandan əvvəl bir yoxlama işi keçirilir. Yoxlama işinə daxil ediləcək mövzular barədə tələbələrə ən azı bir həftə əvvəl fənn müəllimi tərəfindən məlumat verilir. Bundan əlavə, sualların tipi, sayı və digər müvafiq tələblər haqqında da tələbələr əvvəlcədən məlumatlandırılır.<br>**Təqdimat (Prezentasiya)**<br>Semestr ərzində hər tələbən azı bir dəfə təqdimat etməlidir. Təqdimatın mövzusu dərs proqramında əhatə olunan mövzular arasından seçilir ve mövzu, tələbələrin iştirakı ilə püşk yolu ilə müəyyən edilir. Mövzunun dəyişdirilməsi qəti qadağandır. Hər bir təqdimatın müddəti minimum 15, maksimum 20 dəqiqə təşkil etməlidir. Təqdimatlar mütləq olaraq vizual slayt dəstəyi ilə aparılmalıdır.<br>**İmtahanlar**<br>Aralıq və yekun imtahanlarının mövzuları tələbələrə imtahandan əvvəl təqdim olunur. Həmçinin, sual tipləri və sual sayı haqqında da tələbələrə məlumat verilir. Qeyd etmək lazımdır ki, aralıq imtahanında verilən suallar yekun imtahanında təkrarlanmır.<br>**İmtahan qaydalarının pozuntuları**<br>Aralıq və yekun imtahanları zamanı tələbələr tərəfindən imtahanın gedişinə müdaxilə etmək və hər hansı köçürmələr etmək qəti qadağandır. İmtahan zamanı imtahan nəzarətçisinin verdiyi bütün göstərişlərə tam riayət olunmalıdır. Bu qaydaları pozan tələbələrin imtahan işi ləğv edilir və onlar 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası**<br>Universitetin mövcud qaydalarına əsasən, kursu uğurla başa vurmaq üçün tələbənin ümumi müvəffəqiyyət faizi 60% və daha yüksək olmalıdır. Kursu uğurla başa vura bilməyən tələbə həmin fənni növbəti semestrdə və ya növbəti akademik ildə təkrar edə bilər.<br>**Tələbələrin davranış qaydaları**<br>Dərs zamanı dərs prosesini pozmaq və etik qaydaları pozmaq qəti qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr aparmaq, eləcə də mobil telefonlar, smart saatlar, planşetlər və digər bütün elektron cihazlardan istifadə etmək qəti qadağan olunur. Bu qaydaları pozan tələbələr dərs otağından çıxarılacaqlar. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1 | | Azərbaycanda Sovet işğalı. Azərbaycan 1920-1930 cu illərdə. | Dərsliklər və əlavə |

| | | | |
|---|---|---|---|
| | | Azərbaycanda Sovet rejiminə qarşı baş verən silahlı üsyanlar. Azərbaycan siyasi mühacirəti. | ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **2** | | Azərbaycan SSR-in ZSFSR və SSRİ-yə daxil edilməsi. Dağlıq Qarabağ Muxtar Vilayətinin və Naxçıvan MSSR-in yaradılması. Zəngəzurun və digər Azərbaycan torpaqlarının ermənilərə verilməsi. Naxçıvan MSSR-in yaradılması. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **3** | | Sovet işğal hakimiyyətinin qurulması. İctimai və siyasi vəziyyət. Azərbaycanda Sovet totalitarizmi. 30-cuillərin repressiyaları. Azərbaycan ziyalılarının təqibi. Azərbaycanlıların sürgün edilməsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **4** | | Azərbaycan mətbuatında və ədəbiyyatında “Stalinizmin” təbliği.” Sifarişli” ədəbiyyatın yaranması, tarixin təhrif edilməsi, “Proletkult” mədəniyyət sisteminə üs tünlük verilməsi. Elm, yeni təhsil sistemi, savadsızlığın ləğvi uğrunda mübarizə, dinin sıxışdırılması. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **5** | | Güney Azərbaycan İkinci Dünya müharibəsi illərində. Milli azadlıq hərəkatı - 21 Azər. Beynəlxalq münasibətlərdə Cənubi Azərbaycan məsələsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **6** | | İkinci Dünya müharibəsinin başlanması. Azərbaycan xalqı müharibə illərində. İkinci Dünya müharibəsi illərində Azərbaycan legionerləri. Azərbaycan legionerlərinin Milli Azərbaycan Qurultayını keçirməsi. Almaniya rəsmiləri ilə Azərbaycanın müstəqilliyi uğrunda aparılan danışıqlar. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **7** | | Azərbaycan SSR müharibədən sonrakı illərdə (1946-1980-ci illərin ortaları). Sosial-iqtisadi vəziyyət. Totalitar rejimin möhkəmlənməsi. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası. M. C .Bağırov hakimiyyətinin devrilməsi. İ. Mustafayev. V. Axundov. Azərbaycan SSR rəhbərliyində dəyişikliklər və H. Əliyev. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |
| **8** | | Azərbaycan Respublikası “Yenidənqurma” yolunda. Azərbaycan SSR 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində. Sosial-siyasihəyatın canlanması. Milli-demokratik hərəkat. “Dağlıq Qarabağ problemi”nin ortaya atılması. Yeni siyasi | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-5, müvafiq bölmələr və fəsillər |

| | | | |
|---|---|---|---|
| | | partiyalar, ictimai təşkilatlar. AXC-nin yaranması və onun rolunun artması. | |
| | **Aralıq İmtahanı** | | |
| **9** | | Azərbaycanlıların Ermənistandan deportasiyası. Daxili vəziyyətin kəskinləşməsi. 1990-cı il 20 Yanvar faciəsi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi. Müstəqil Azərbaycan Respublikasının inkişaf problemləri. Daxili və xarici vəziyyət. Ayaz Mütəllibovun siyasi xəttinin iflası. Ermənistanın Azərbaycana hücumları və Dağlıq Qarabağda yeni müharibənin başlanması, Xocalı soyqırımı. Respublikada ictimai-siyasi böhran, torpaqların işğalı. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| **10** | | Xalq hərəkatının yüksəlişi. Elçibəy - AXC iqtidarı. Siyasi və iqtisadi islahat təşəbbüsləri. Gəncə qiyamı (1993, 4 iyun). AXC iqtidarının devrilməsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| **11** | | Prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsi; 1993-cü il prezident seçkiləri. Siyasi sabitliyə doğru. Azərbaycan - Ermənistan münasibətləri. 1994-cü il Atəşkəsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| **12** | | Yeni prezident seçkiləri (1998-ci il). Beynəlxalq münasibətlərin genişlənməsi. Daxili və xarici siyasət. Azərbaycan dövlətçiliyi. Azərbaycan Respublikasının neft strategiyası, Əsrin müqaviləsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| **13** | | İlham Əliyevin prezident seçilməsi - (2003,2013). Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| **14** | | Azərbaycan torpaqlarının işğaldan azad edilməsi (2020-ci il). "Zəfər Günü". Qarabağ uğrunda döyüşlərin xranologiyası. | Dərsliklər və əlavə ədəbiyyat/əsas |

| | | | |
|---|---|---|---|
| | | | dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| **15** | | Azərbaycan Diasporunun xarici ölkələrdə fəaliyyəti. Dünya Azərbaycanlılarının qurultaylarının Bakıda keçirilməsinin əhəmiyyətliliyi. ABŞ-da və Avropa ölkələrindəki diaspor qurumlarımız. Diaspor təşkilatlarımızın nəşr orqanları, yaratdıqları internet saytlar. | Dərsliklər və əlavə ədəbiyyat/əsas dərsliklər: 1-3, 5-6, müvafiq bölmələr və fəsillər |
| | **Final İmtahanı** | | |